**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA ÖZƏL SAHİBKARLIQ STRUKTURLARININ MALİYYƏ DAYANIQLIĞININ TƏMİN OLUNMASI İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01- Ümumi iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Kənan Kamal oğlu Rəhimov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2023**

Dissertasiya işi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, dosent<br>**Arzu Nəcəf oğlu Həsənov** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, dosent<br>**Pəri Əmirəhmət qızı Həsənova** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru,<br>dosent **Vilayət Bədir oğlu Mirzəyev** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru,<br>dosent **Samirə Raqif qızı Əhmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universitetinin və Bakı Biznes Universitetinin Birgə dissertasiya şurası.

| | |
|---|---|
| Birgə Dissertasiya şurasının sədri: | AMEA-nın həqiqi üzvü,<br>iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Birgə Dissertasiya şurasının elmi katibi: | iqtisad elmləri üzrə fəlsəfə<br>doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova** |
| Elmi seminarın sədri: | iqtisad elmləri doktoru,<br>professor<br>**Məhərrəm Cəlal oğlu Hüseynov** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Beynəlxalq iqtisadi sistemə inteqrasiya şəraitində özəl sahibkarlıq strukturlarının iqtisadi inkişafdakı rolu bir sıra cəhətləri ilə özünü göstərir. Bu baxımdan sahibkarlıq subyektləri iqtisadi proseslərə fəal şəkildə qoşulmaqla yeni texnika və texnologiyaların mənimsənilməsinə çevik reaksiyası ilə fərqlənir, rəqabət üstünlükləri əldə etmək üçün imkanları güclü şəkildə səfərbər edir. Özəl sahibkarlıq strukturları innovasiya mühitinin yaradılması, ənənəvi istehsal strukturlarının yeniləri ilə əvəzlənməsi, maliyyə resurslarından istifadə də təşviqedici funksiyanın yerinə yetirilməsi, həmçinin iqtisadiyyatın sabit inkişafı baxımından effektiv vasitəyə çevrilir.

Özəl sahibkarlığın inkişafı makroiqtisadi amillərdən, o cümlədən səmərəli maliyyə siyasətinin formalaşdırılmasından bilavasitə asılıdır. Ona görə də özəl sahibkarlıq strukturlarının daxili və xarici mühitdəki dəyişikliklərə çevik reaksiya göstərməklə, özlərinin maliyyə dayanıqlığını təmin etməkdə daha effektiv fəaliyyət mexanizmi ilə seçilir.

Müasir innovasiyalı iqtisadiyyatın formalaşması özəl sahibkarlığın bu proseslərdəki rolunu və səmərəliliyini kəskin şəkildə artırmağa imkan verir. Özəl sahibkarlıq strukturlarının fəaliyyətinin yerinə yetirdiyi funksiyalar göstərir ki, mənfəətin artırılması və maliyyə dayanıqlığının təmin olunması məqsədilə istehsal resurslarının optimal şəkildə istifadəsi sahibkarlığın bu formasının əsas vəzifələrindəndir. Maliyyə dayanıqlığı hər bir sahibkarlıq subyektinin həm xarici, həm də daxili öhdəliklərini qısamüddətli və uzunmüddətli dövrdə reallaşdırmaq qabiliyyətini xarakterizə edir. Maliyyə dayanıqlığının təmin edilməsində istehsal fəaliyyətinin təşkili ilə bağlı qərarların səmərəliliyi ən vacib əlamətlərdən biridir.

Qloballaşmanın genişlənməsi və pandemiya böhranı kontekstində müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfat subyektləri tərəfindən maliyyə resurslarının səfərbər edilməsi perspektivləri pisləşir, kredit vəsaitlərinin məqbul şərtlərlə yenidən maliyyələşdirilməsi imkanları azalır, müəssisələrin inkişafına strateji investisiyaların həcmi azalır. Belə bir vəziyyətdə maliyyə sabitliyini

təmin etmək üçün sahibkarlıq subyektləri istehsalata daha geniş maliyyə resursları cəlb etməyə çalışırlar. Bu isə ardıcıl iqtisadi siyasətin həyata keçirilməsi ilə birbaşa bağlıdır. Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə özəl sahibkarlığın inkişaf etdirilməsi üçün maliyyə resurslarının cəlb edilməsi zərurəti də yaranmışdır. “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixli Fərmanı məhz *“sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi”*[1] məqsədlərini ehtiva edir. Ümummilli Lider Heydər Əliyevin *“sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur”,* ölkə Prezidenti cənab İlham Əliyevin *“ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır”* fikrləri də sahibkarlığın inkişaf etdirilməsinə dövlət qayğısının ən mühüm təzahürlərindəndir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də qeyd edilir: “*özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalıdır”*[2] . Qeyd etmək lazımdır ki, Covid -19 pandemiyasının bütün sferalara mənfi təsirinin olmasına baxmayaraq 30 ildən artıq dövrdə işğalda olmuş ərazilərimizin ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə azad edilməsi də özəl sahibkarlığın inkişafı üçün mühüm perspektivlər açır.

Araşdırmalar göstərir ki, sahibkarlıq fəaliyyətində subyektlərin maliyyə dayanıqlığının yüksək səviyyəsi, iqtisadiyyatın müxtəlif sahələrinin müflisləşmə riskinin minimuma endirilməsində əməliyyat

---

[1] “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixli Fərmanı.

[2] “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.

fəaliyyətinin genişləndirilməsi üçün maliyyə dəstəyinin zəruiliyini özündə əks etdirən ən əhəmiyyətli göstəricilərdən biridir. Müvafiq olaraq, özəl sahibkarlıq subyektlərinin maliyyə sabitliyinin göstəriciləri və onların dəyişmə meylləri geniş əhatəli iqtisadi subyektləri, xüsusən potensial strateji investorları və kreditorları bu sahəyə təşviq edən başlıca amillərdəndir. Bütün bunlar özəl sahibkarlıq strukturlarının inkişafı və maliyyə dayanıqlığının təmin olunması problemlərinin aktuallığını təsdiq edir.

Özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının təmin olunması problemlərinin tədqiq olunması daim iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. Azərbaycanın iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, E.R.İbrahimov, E.A.Quliyev, İ.H.Alıyev, İ.H.İbrahimov, B.X.Ataşov, S.V.Salahov, M.C.Hüseynov, A.N.Həsənov, A.F.Abbasov, A.M. Məhərrəmov, V.H.Abbasov G.Ə.Gənciyev, V.M. Niftullayev, Q.N. Manafov, Ş.T.Əliyeva, Ə.S.İmanov və başqalarının araşdırmalarında bu məsələlərə geniş yer verilir. Sahibkarlıq subyektlərinin maliyyə sabitliyinin təmin edilməsinin nəzəri aspektləri xarici ölkələrin iqtisadçılarının - A.Smit, M.Porter, F.Kotler, P.Samuelson, T.Kantilon, A.V.Busıqin, N.V.Alekseev, V.İ.Makarova, Q.V.Savitskaya, İ.V.Yeşova, E.M.Kozakov və s. elmi əsərlərində də geniş şəkildə araşdırılmışdır. Lakin bu tədqiqatlarda özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının təmin olunması problemlərinin ayrı-ayrı sferalarda araşdırılması diqqəti cəlb edir. Daha dəqiq desək göstərilən müəlliflərin elmi araşdırmalarında problemə kompleks yanaşma müşahidə edilmir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti iqtisadiyyatın müxtəlif sferalarında fəaliyyət göstərən özəl sahibkarlıq strukturlarıdır. Tədqiqatın predmetini özəl sahibkarlıq strukturlarının fəaliyyətinin ən mühüm istiqamətlərindən olan maliyyə dayanıqlığının təmin olunması məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədini özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının formalaşmasının nəzəri-metodoloji aspektlərini, sahibkarlıq subyektlərinin fəaliyyətinin inkişaf dinamikasını və maliyyə dayanıqlığının

səviyyəsini araşdırmaqla maliyyə dayanıqlığının yüksəldilməsi perspektivlərini aşkara çıxarmaqdan, bununla bağlı təklif və tövsiyyələr hazırlamaqdan ibarətdir. Bu istiqamətdə aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- özəl sahibkarlıqda maliyyə dayanıqlığının konseptual aspektlərinin araşdırılması;
- özəl sahibkarlıq strukturlarının formalaşması və inkişaf xüsusiyyətlərinin müəyyən edilməsi;
- maliyyə dayanıqlığının özəl sahibkarlıq subyektlərinin iqtisadi inkişafındakı əhəmiyyətinin əsaslandırılması;
- müxtəlif sahibkarlıq subyektlərinin əsas iqtisadi göstəricilərinin təhlili;
- sahibkarlıq subyektlərinin maliyyə dayanıqlığı vəziyyətinin, bu sahədəki tendensiyaların tədqiqi;
- özəl sahibkarlıq subyektlərinin rəqabət və maliyyə dayanıqlığı potensialının qiymətləndirilməsi;
- özəl sahibkarlıq strukturlarının inkişaf perspektivləri və maliyyə dayanıqlığının yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqat metodları:** Dissertasiya işində aşağıdakı metodlardan istifadə edilmişdir: analiz, sintez, iqtisadi-riyazi, iqtisadi-statistik, analitik təhlil, müqayisəli təhlil.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının formalaşması ilə bağlı elmi-nəzəri baxışların və sahibkarlıq strukturlarının inkişaf xüsusiyyətlərinin ümumiləşdirilməsi;
- maliyyə dayanıqlığının təmin edilməsi ilə özəl sahibkarlıq subyektlərinin iqtisadi inkişafı arasında əlaqənin əsaslandırılması;
- sahibkarlıq subyektlərinin əsas iqtisadi göstəricilərinin maliyyə dayanıqlığına təsirinin müəyyən edilməsi;
- özəl sahibkarlıq subyektlərinin rəqabət potensialı və maliyyə dayanıqlığı arasındakı asılılığın qiymətləndirilməsi;
- özəl sahibkarlıq strukturlarının inkişafının stimullaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi;
- sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi;

- özəl sahibkarlıq subyektlərinin rəqabət potensialının artırılması istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

- özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının formalaşdırlımasının elmi əsaslarının işlənilməsində sahibkarlıq subyektlərinin inkişaf xüsusiyyətlərinin - bütün növ ehtiyatlardan istifadənin yüksək intensivliyi və optimallaşdırılması, resurslardan istifadənin rasional nisbətinin təmin edilməsi və s. nəzərə alınmasının zəruriliyi əsaslandırılmışdır;
- maliyyə dayanıqlığının və inteqrasiya münasibətlərinin özəl sahibkarlıq subyektlərinin iqtisadi inkişafındakı rolu müəyyənləşdirilmişdir;
- sahibkarlıq subyektlərinin əsas iqtisadi göstəriciləri ilə maliyyə dayanıqlığı arasındakı əlaqə müəyyən edilmiş, bu asılılığın və asılılığa təsir edən amillərin nəzərə alınmasının zəruriliyi əsaslandırılmışdır;
- özəl sahibkarlıq strukturlarının inkişafına xidmət edən stimullaşdırma tədbirləri və dövlət dəstəyinin əsas istiqamətləri - subsidiyalar, kreditlərin əlçatanlığının təmin edilməsi, risklərin sığortası, əsas və dövriyyə vəsaitlərinin güzəştli satışı və s. müəyyən edilmişdir;
- özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilməklə idarəetmənin sahibkarlıq fəaliyyətinin inkişafına təsiri müəyyən edilmişdir;
- özəl sahibkarlıq subyektlərinin rəqabət şəraitində maliyyə dayanıqlığı potensialının artırılması istiqamətləri - sahibkarlığa dəstək mexanizmləri, subsidiyalaşma, güzəştli kreditlər, maliyyə dotasiyaları, vergi güzəştləri, ixraca dəstək tədbirləri və s. müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqatın nəzəri əhəmiyyəti, özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının formalaşmasının elmi-nəzəri müddəalarının elmi cəhətdən əsaslandırılmasından ibarətdir. Bu sahədə konseptual yanaşmalar rəqabət şəraitində sahibkarlıq strukturlarının maliyyə dayanıqlığı ilə bağlı iqtisadi şərtlərlə və tədqatın nəzəri aspektləri ilə sıx bağlıdır. Bu

baxımdan müəyyən edilən elmi-nəzəri müddəalar sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının möhkəmləndirlməsində mühüm strategiya kimi qəbul edilə bilər. Dissertasiya tədqiqatının əsas elmi müddəaları və nəticələri, həmçinin maliyyə dayanıqlığının təmin edilməsinə dair tədqiqatlar üçün nəzəri və metodoloji əsas rolunu oynaya bilər.

Tədqiqatın praktik əhəmiyyəti sahibkarlıq strukturlarının maliyyə dayanıqlının yüksəldilməsi istiqamətində hazırlanan təkliflərlə, həmin təkliflərin sahibkarlıq strukturlarının inkişaf strategiyasının müəyyən edilməsində istifadə imkanları ilə xarakterizə olunur. Əldə edilmiş nəticələr və irəli sürülən təkliflərdən sahibkarlıq subyektlərinin maliyyə dayanıqlığının təmin edilməsi siyasətinin formalaşdırılmasında və təkmilləşdirilməsində də istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi:** İşdə əsaslandırılan əsas müddəalar respublika və beynəlxalq səviyyəli elmi və elmi-praktiki konfranslarda məruzə edilmişdir. Belə ki, ("Sahibkarlıq fəaliyyətində sağlam rəqabətin təmin olunması və rəqabətdən yaranan təhlükələrə qarşı dövlət tədbirləri”. Müasir təbiət elmlərinin aktual problemləri, Gəncə 2021, “Sahibkarlıq fəaliyyətində sosial məsuliyyət”. Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər, Mingəçevir 2021, “Преимущества, недостатки и факторы удачи предпринимательства”. Актуальные научные исследования в современном мире, Переяслав Выпуск 10 (78) 2021, “Государственная поддержка и меры стимулирования развития частных предпринимательских структур”. Актуальные научные исследования в современном мире, Переяслав Выпуск 7 (75) Част 3, 2021, “Направления поощрения и стимулирования экспорта у субъектов частного предпринимательства”. Продовольственная безопасность: проблемы и пути решения, Махачкала, 2021) adlı tezislər müvafiq elmi konfransların materiallarında dərc edilmişdir.

Tədqiqatın əsas müddəalarına dair 10 elmi məqalə və tezis nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi və quruluşu**. Dissertasiya işi, giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və 218914 işarədən

ibarətdir. Giriş 7 səhifə 11180 işarə, I fəsil 37 səhifə 60250 işarə, II fəsil 39 səhifə 63063 işarə, III fəsil 36 səhifə 58273 işarə, nəticə 4 səhifə 8389 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 12 səhifə 15918 işarə, təşkil edir. Tədqiqat işində 8 cədvəl, 2 şəkil verilmiş, istifadə edilən ədəbiyyat siyahısında 142 adda mənbə göstərilmişdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin "Özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının formalaşmasının nəzəri-metodoloji aspektləri" adlı birinci fəslində Özəl sahibkarlıqda maliyyə dayanıqlığının nəzəri məsələləri, özəl sahibkarlıq strukturlarının formalaşması və inkişaf xüsusiyyətləri və maliyyə dayanıqlığının özəl sahibkarlıq subyektlərinin iqtisadi inkişafındakı rolu məsələləri şərh edilmişdir.

Qloballaşma prosesinə transformasiya şəraitində özəl sahibkarlığın inkişafı iqtisadiyyatın dayanıqlığını təmin edən komponentlərin keyfiyyət dəyişikliklərini şərtləndirməklə bu sahədə effektiv inkişaf mexanizmlərinin formalaşdırılmasını tələb edir. Özəl sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının müasir modelinin zəruri tərkib hissəsidir. Özəl sahibkarlıq müxtəlif iqtisadi subyektlər arasında rəqabət çalarının saxlanmasına böyük ölçüdə kömək edir, istehsal strukturuna təsir edir, sahibkarlar təbəqəsinin formalaşmasına zəmin yaradır. Bununla yanaşı, hələ də iqtisadi sistemin inkişafında, o cümlədən davamlı artımın təmin edilməsində özəl sahibkarlığın rolu tam dərk olunmur. Ona görə də özəl sahibkarlıq fəaliyyətinin, onun dayanıqlı inkişafının elmi-nəzəri və institusional aspektlərinin öyrənilməsi zərurəti aktuallığını saxlamaqdadır. Bu baxımdan problemə konseptual yanaşmalar özəl sahibkarlığa iqtisadi təsir vasitələrinin səmərəliliyinin müəyyən edilməsini, büdcə, vergi, kredit mexanizmlərinin və dövlət tənzimlənməsinin maliyyə alətlərinin

həyata keçirilməsi mexanizmlərinin hazırlanmasının vacibliyini önə çəkir.

Özəl sahibkarlığın inkişafı ilk növbədə onun maliyyə dayanıqlığının qənaətbəxş səviyyəsinin formalaşmasını, maliyyə potensialının inkişafı dövrünün dinamikliyini, məqbul şərtlərlə bank kreditlərinin cəlb edilməsi üçün zəruri şərtlərin yaradılmasını, kreditor borclarının dövriyyəsinin qısaldılmasını və strateji investorların sahibkarlığın inkişafı layihələrinə resursların yönəldilməsində kifayət qədər marağının təmin olunmasını tələb edir.

Özəl sahibkarlıq dayanıqlı iqtisadiyyatın formalaşmasının əsas şərtidir və onun inkişafında sahibkarlıq fəaliyyətinə ənənəvi meyil ciddi rol oynayır. Özəl sahibkarlığın formalaşmasında və inkişafında həm xarici, həm də daxili amillər və sahibkarlıq mühiti həlledici rol oynayır: xarici ölkələrlə iqtisadi inteqrasiyanın yüksək səviyyədə olması; xarici kreditlərin cəlb edilməsi; birbaşa xarici investisiyalar; bazar münasibətlərinin inkişaf səviyyəsi; infrastrukturun vəziyyəti; istehsal-iqtisadi potensial və ondan istifadə vəziyyəti; əmək və təbii ehtiyatlarla təmin olunma və ondan istifadə imkanları və s. Bütün bunlar özəl sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması istiqamətində həyata keçirilən hərtərəfli siyasətin elementlərini xarakterizə edir.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, sahibkarlıq fəaliyyətinin inkişafının davamlılığı və maliyyə dayanıqlığı məsələləri bir-birini tamamlayan konsepsiyaların tərkib hissələridir. Beləliklə, iqtisadi sabitliklə bağlı nəzəriyyələr nöqteyi-nəzərdən dayanıqlılıq sistemlərin və ya obyektlərin daxili strukturunun optimallığını, yerinə yetirilən funksiyaları, müəyyən davranışı və ətraf mühit amilləri ilə qarşılıqlı təsir mexanizmini əks etdirən xüsusiyyətlər kimi qəbul edilir.

Araşdırmalar göstərir ki, özəl sahibkarlıq iqtisadi və sosial inkişafın mühüm problemlərinin həlli üçün iqtisadi bazanın yaradılmasında həlledici rola malikdir. Sahibkarlıq strukturları ölkənin və istehlakçıların tələbatlarının ödənilməsində mühüm rol oynamaqla bazar tələblərinə çevik uyğunlaşma qabiliyyətinə malikdirlər. Özəl sahibkarlıq subyektləri iqtisadi artıma nail olmaq üçün əmək məhsuldarlığının artırılmasında ən mühüm amil kimi elm və texnikanın yeni nailiyyətlərindən maksimum istifadə etməyə çalışır.

Bütün bunlar, son nəticədə ölkədə dayanıqlı iqtisadi artıma və əhalinin həyat keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarır.

Sahibkarlıq strukturları bazarı onun konyukturuna uyğun məhsullarla təmin etmək üçün daim innovasiya siyasəti həyata keçirməyə çalışır. Müasir şəraitdə subyektlərin uğurla fəaliyyət göstərməsinə xidmət edən innovativ siyasət bazar tələbinin formalaşmasında təşəbbüsü ələ keçirməyə, xüsusən də daha çox istehlakçılar üçün ehtiyaclar yaratmağa imkan verən innovativ mexanizmlərə əsaslanır. Aydındır ki, özəl sahibkarlıq subyektlərinin gəlir mənbəyi təkcə istehsalın artımı deyil, həm də istehsal olunan məhsulların şaxələndirilməsi və çeşidinin daim yenilənməsidir. Bu baxımdan subyektlər istehlakçı tələbindəki dəyişikliklərə daha tez reaksiya verməyə, iqtisadi vəziyyətin dəyişməsinə uyğun olaraq öz fəaliyyət istiqamətini qısa müddət ərzində dəyişməyə çalışır. Bunun sayəsində onların fəaliyyətinin və bütövlükdə iqtisadiyyatın səmərəliliyi əhəmiyyətli dərəcədə artır.

İqtisadiyyatın bazar transformasiyası şəraitində özəl sahibkarlıq subyektlərinin fəaliyyəti mürəkkəb xarici və daxili amillərin təsirinə məruz qalır. Bu baxımdan hər bir sahibkarlıq strukturunun maliyyə vəziyyətinin göstəricilərinin müəyyən edilməsi, təhlili və proqnozlaşdırılması kifayət qədər aktuallıq kəsb edir. Maliyyə dayanıqlığı sahibkarlıq subyektlərinin ödəmə qabiliyyətinə və investisiya cəlbediciliyinə zəmanət verən, dəyişən daxili və xarici mühitdə fəaliyyət göstərmək və inkişaf etmək, aktiv və öhdəliklərin balansını saxlamaq qabiliyyəti kimi formalaşır.

Beləliklə, özəl sahibkarlıq subyektlərinin maliyyə dayanıqlığını möhkəmlətmək üçün koordinasiyalı şəkildə müəyyən tədbirlərin görülməsinə ehtiyacın müəyyən edilməsi, mövcud tədbirlərin həyata keçirilməsi üçün sərhədlərin yenidən nəzərdən keçirilməsi vacibliyini qoruyur. Bu, öz növbəsində, maliyyə dayanıqlığı səviyyəsində kənarlaşmaların vaxtında aradan qaldırılmasına imkan verir.

İkinci fəsildə - "Özəl sahibkarlıq subyektlərinin inkişaf dinamikası və maliyyə dayanıqlığının səviyyəsi" - özəl sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyətini xarakterizə edən göstəricilərin dinamikasının və özəl sahibkarlıq subyektlərinin maliyyə dayanıqlığı vəziyyətinin

təhlili aparılır, özəl sahibkarlıq subyektlərinin rəqabətə potensialı qiymətləndirilir.

Sahibkarlıq sferasında maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı üzrə təsərrüfatçılıq subyektlərinin fəaliyyəti təkrar istehsalı prosesi kimi xarakterizə olunmaqla ümumi iqtisadi fəaliyyət istiqamətini müəyyənləşdirir. İqtisadi fəaliyyət resurslar (avadanlıq, əmək, texnologiya, xammal və materiallar) və istehsal proseslərini birləşdirərək konkret əmtəə və xidmətlərin yaradılmasına yönəlir. Sahibkarlıq subyektlərinin dayanıqlı iqtisadi inkişafı onun iqtisadi komponentlərinin qiymətləndirilməsi baxımından məhdud resurslar şəraitində onlardan daha səmərəli istifadəni önə çəkir. Bu zaman xarici və daxili mühitdəki dəyişikliklərin nəzərə alınması, baş verən dalğalanmalara çevik reaksiya göstərilməsi dayanıqlı iqtisadi inkişafın əsas meyarları kimi qəbul edilir.

Məlumdur ki, yenilikçi təşəbbüslər özəl qurumların rəqabət mövqelərini ciddi şəkildə möhkəmləndirir və onların iqtisadi fəaliyyətlərində yüksək səmərə əldə etməyə imkan verir. Ölkəmizdə xammal və enerji ehtiyatlarının da kifayət səviyyədə olması, zəruri biznes mühitində özəl sahibkarlığın inkişafına zəmin yaradır. Araşdırmalar göstərir ki, son illər həyata keçirilən, o cümlədən "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan stimullaşdırıcı tədbirlərin nəticəsində sahibkarlıq subyektlərinin əsas makroiqtisadi gostəricilərində dinamik artım baş vermişdir. 2016-cı illə müqayisədə 2020-ci ildə yaradılmış əlavə dəyər 3,1 dəfə, orta aylıq nominal əmək haqqı 80,8%, məhsul buraxılışı 3,4 dəfə artmışdır. Əldə edilmiş müsbət nəticələr son illər sahibkarlığa meyilin artması ilə də bağlıdır. Təsadüfi deyil ki, məhz bu səbəbdən müqayisə olunan dövrdə işçilərin sayında 24,1% artım qeydə alınmışdır. Yalnız əsas kapitala investisiyaların həcmində 2016-cı ilə nisbətən 2020-ci ildə azalma baş vermişdir – 5,5% (Cədvəl 1).

**Cədvəl 1**

**Sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri**

| Göstəricilər | İ l l ə r | | | | | 2016-cı ilə nisbətən 2020-ci ildə, %-lə |
|---|---|---|---|---|---|---|
| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | |
| Yaradılmış əlavə dəyər, milyon manat | 3587,2 | 3807,6 | 9836,6 | 11071,7 | 10941 | 3,1 dəfə |
| İşçilərin sayı, min nəfər | 281,0 | 290,1 | 283,4 | 332,2 | 348,7 | 124,1 |
| Orta aylıq nominal əmək haqqı, manat | 338,6 | 352,8 | 445,3 | 531,0 | 612,3 | 180,8 |
| Əsas kapitala investisiyalar, milyon manat | 2830,2 | 3298,6 | 6953,0 | 3 422,2 | 2674,1 | 94,5 |
| Məhsul buraxlışı, milyon manat | 5831,2 | 6269,6 | 17401,6 | 19579,4 | 9725,7 | 3,4 dəfə |

*Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir .*[3]

İqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyərinə nəzər saldıqda məlum olur ki, tədqiqatın aparıldığı illərdə iqtisadi fəaliyyət növləri üzrə göstərici ümumilikdə 3,4 dəfə, o cümlədən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 7,8 dəfə, sənayedə 8 dəfə, mədənçıxarma sənayesində 17,8 dəfə, emal sənayesində 5,7 dəfə, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sistemində 28,1 dəfə, su təchizatı; tullantıların təmizlənməsi və emalında 8,7 dəfə, tikintidə 13,4 dəfə, ticarət; nəqliyyat vasitələrinin təmirində 74,5% nəqliyyat və anbar təsərrüfatında 73,9%, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində 9,3 dəfə artmışdır (Cədvəl 2). Yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş

---

[3] Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: 2021 - ci il, s.23

**Cədvəl 2**

**Mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri, mln manat**

| İqtisadi fəaliyyət növləri | İ l l ə r | | | | | 2016-cı ilə nisbə-tən 2020-ci ildə,%-lə |
|---|---|---|---|---|---|---|
| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | |
| İqtisadi fəaliy-yət növləri üzrə cəmi | 5831,2 | 6269,7 | 17401,6 | 19579,4 | 19725,7 | 3,4 dəfə |
| Kənd təsərrüfa-tı, meşə təsərrü-fatı və balıqçılıq | 96,6 | 108,7 | 503,1 | 577,6 | 749,8 | 7,8 dəfə |
| Sənaye cəmi | 499,7 | 603 | 3 120,4 | 3 844 | 4 007,5 | 8,0 dəfə |
| Mədənçıxarma sənayesi | 24,6 | 24,9 | 182,6 | 382,3 | 437,3 | 17,8 dəfə |
| Emal sənayesi | 409,6 | 466,7 | 1 996,6 | 2 510,9 | 2 334,1 | 5,7 dəfə |
| Elektrik enerjisi, qaz və buxar istehsalı və təchizatı | 34,4 | 75,5 | 726,8 | 699,9 | 966,4 | 28,1 dəfə |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 31,1 | 35,8 | 214,5 | 250,8 | 269,6 | 8,7 dəfə |
| Tikinti | 273,9 | 377,5 | 2 724,5 | 3 011,8 | 3 664,1 | 13,4 dəfə |
| Ticarət, nəqliyyat vasi-tələrinin təmiri | 2861,8 | 2848,9 | 3 748,8 | 4 092,0 | 4 993,0 | 174,5 |
| Nəqliyyat və an-bar təsərrüfatı | 690,5 | 719,9 | 1 456,4 | 1 544,8 | 1 201,0 | 173,9 |
| Əhaliyə sosial xidmətlərin göstərilməsi | 38,4 | 45,5 | 472,4 | 588,6 | 358,8 | 9,3 dəfə |

*Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*[4]

[4] Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: 2021 - ci il, s.48

xidmətlərin dəyərinin müqayisə olunan dövrdə kəskin şəkildə artması *"biznes və investisiya mühitinin yerli və xarici investorlar üçün əlverişliliyinin daha da artırılması, ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun daha da cəlbedici biznes və investisiya mühitinin formalaşdırılması"*[5] tədbirləri ilə birbaşa bağlamaq olar.

Təhlil göstərir ki, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi sahələrə görə bölgüsündə ən böyük pay pərakəndə ticarətə aiddir. Belə ki, kiçik sahibkarların 33%-i bu fəaliyyət sahəsində cəmlənmişdir. Bunun əsas səbəblərindən biri onunla bağlıdır ki, pərakəndə ticarət sahəsində inhisarçılıq meyillərinin və ilkin kapitala olan tələbatın zəif olması, bunlarla əlaqədar ticarət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan iqisadi subyektlərin daha geniş rəqabət imkanlarına malik olması ilə bilavasitə bağlıdr. Pərakəndə ticarət sahəsindən sonra mikro, kiçik və orta sahibkarlıq 4% sənaye sektorunda, 4% tikinti sektorunda, emal sənayesində 4%, digər sahələrdə 54% fəaliyyət göstərir. Kənd təsərrüfatı bu strukturda yalnız 1% xüsusi çəkiyə malikdir (Şəkil 1).

Qeyd edilənlər göstərir ki, özəl sahibkarlıq subyektlərinin uğurlu fəaliyyəti əsasən onun maliyyə dayanıqlığının səviyyəsindən asılıdır. Sahibkarlıq strukturunun maliyyə dayanıqlığı nə qədər sabit olarsa, bazar şəraitindəki dəyişikliklərdən bir o qədər sığortalanmış olur və müxtəlif səviyyəli dalğalanmalarla bağlı risklər bir o qədər azalır. Bu baxımdan sahibkarlıq fəaliyyətinin strateji məqsədi ilk növbədə maliyyə dayanıqlığına nail olmaqdır.

Göstərilənlər baxımından sahibkarlıq subyektlərinin maliyyə dayanıqlığını xarakterizə edən ən mühüm göstəricilərdən olan ehtiyatlar və aktivlərin mövcud vəziyyətinə nəzərə saldıqda məlum olur ki, son 2 ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyət növləri üzrə ehtiyatları 30%, aktivləri 7,5% artmışdır. Bu göstəricilər üzrə artım kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda müvafiq olaraq 68,4% və 48,5%, su təchizatı;

[5] "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2016-cı il tarixli sərəncamı.




**Şəkil 1. 2020-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi sahələr üzrə bölgüsü.**[6]

tullantıların təmizlənməsi və emalında 3,9 dəfə və 2 dəfə, tikintidə 78,3% və 87,1%, ticarət; nəqliyyat vasitələrinin təmirində 22,3% və 29,9% təşkil etmişdir. Sənayedə 2019-cu illə müqayisədə 2020-ci ildə ehtiyatlar və aktivlərdə müvafiq olaraq 0,5% və 1,7%, emal sənayesində 6,6% və 9,9% azalma qeydə alımışdır. Bəzi iqtisadi fəaliyyət növlərində isə fərqli vəziyyət müşahidə olunur. Belə ki, mədənçıxarma sənayesində ehtiyatlar 2,3 dəfə artsada aktivlər 3,5% azalmış, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında ehtiyatlar 6,7% azalmış, aktivlər 17,4% artmış, nəqliyyat və anbar təsərrüfatında ehtiyatlar 82,1% artmış, aktivlər 1,5% azalmış, əhaliyə sosial xidmətlərin göstərilməsində ehtiyatlarda 2,4% azalma, aktivlərdə 47,7% artım baş vermişdir (Cədvəl 3).

[6] Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: 2021 - ci il, s.79

**Cədvəl 3**

**İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatları və aktivləri, mln manat**

| İqtisadi fəaliyyət növləri | İ l l ə r | | | | 2019-cu ilə nisbətən 2020-ci ildə, %-lə | |
|---|---|---|---|---|---|---|
| | 2019 | | 2020 | | | |
| | Ehti-yatlar | Aktiv-lər | Ehti-yatlar | Aktiv-lər | Ehtiyat-lar | Aktiv-lər |
| İqtisadi fəaliyyət növləri üzrə cəmi | 3 223,2 | 54274,0 | 4 191,2 | 58 363,3 | 130,0 | 107,5 |
| o cümlədən: | | | | | | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 125,3 | 1 577,9 | 211,0 | 2 343,0 | 168,4 | 148,5 |
| Sənaye | 833,6 | 21 893,4 | 829,2 | 21 526,7 | 99,5 | 98,3 |
| Mədənçıxarma sənayesi | 26,8 | 15 867,7 | 62,1 | 15 315,5 | 2,3 dəfə | 96,5 |
| Emal sənayesi | 800,7 | 5 022,3 | 747,7 | 4 525,9 | 93,4 | 90,1 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüş-dürülməsi və təchizatı | 1,5 | 407,3 | 1,4 | 478,3 | 93,3 | 117,4 |
| Su təchizatı, tul-lantıların təmiz-lənməsi və emalı | 4,6 | 596,1 | 18,1 | 1 207,0 | 3,9 dəfə | 2,0 dəfə |
| Tikinti | 528,4 | 5 504,6 | 942,3 | 10 298,8 | 178,3 | 187,1 |
| Ticarət, nəqliy-yat vasitələrinin təmiri | 1 366,9 | 3 468,0 | 1 672,3 | 4 505,0 | 122,3 | 129,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 115,4 | 2 651,9 | 210,2 | 2 611,8 | 182,1 | 98,5 |
| Əhaliyə sosial xidmətlərin göstərilməsi | 14,5 | 283,2 | 12,7 | 418,2 | 87,6 | 147,7 |

*Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*[7]

---

[7] Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: 2021 - ci il, s.205-209

İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin ehtiyatları və aktivləri qeyd edildiyi kimi onların maliyyə vəziyyətini ümumi şəkildə xarakterizə edir. Ona görə maliyyə vəziyyətinin qiymətləndirilməsində meyarların düzgün seçilməsi ən mühüm məsələlərdəndir. Qeyd edilənlər baxımından baş verə biləcək böhranının əlamətlərinə operativ və effektiv reaksiya verməyə imkan verən etibarlı məlumatların əldə edilməsi mühüm amillərdən hesab edirlir.

Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiya şəraitində istehsalın səmərəliliyinin və tələbin reallaşdırılmasının əsas meyarı istehsal olunan məhsulların rəqabət qabiliyyətliliyi hesab edilir. Məlumdur ki, istehsalın artımı rəqabət potensialının yaxşılaşdırılmasının əsas mənbələrindəndir. Ümumi şəkildə rəqabət potensialı sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulların keyfiyyəti, istehlak xüsusiyyətləri və ya satış sonrası xidmət şəklində bənzərsiz və daha böyük bir dəyər təqdim etmək qabiliyyətidir.

Araşdırmalar göstərir ki, iqtisadiyyatın istənilən sahəsində sahibkarlıq fəaliyyəti məhsullarla yanaşı sahələr arasında rəqabətə də səbəb olur. Yerli bazarlarda və ya konkret coğrafi seqmentdə sahibkarlıq subyektlərinin və onun fəaliyyət sahələrinin rəqabət mübarizəsindən qaçması mümkün deyil. Belə şərtlərdə, rəqabətə davamlı məhsullara sahib müasir sahibkarlıq strukturlarının formalaşdırılması və inkişafı prioritetlərdən hesab edilir. Bu halda subyekt, istehsal prosesində əlavə dəyər yaradaraq maliyyə nəticələrini artıra bilir, məhsullara olan tələbatı vaxtında təmin etməklə istehsalın iqtisadi nəticələrinin davamlılığını təmin edir, məhsulların keyfiyyətini yaxşılaşdıraraq rəqabət qabiliyyəti səviyyəsində yüksəlişə nail ola bilir.

Araşdırmalar göstərir ki, özəl sahibkarlıq strukturlarının rəqabət potensialı onların fəaliyyətində özünü bilavasitə göstərir və subyektlərin iqtisadi inkişafdakı rolunu müəyyənləşdirir. Bu baxımdan sahibkarlıq subyektləri tərəfindən istehsal edilmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin ümumi dəyərində subyektlərin payına nəzər saldıqda məlum olur ki, son illər bu göstərici iqtisadi fəaliyyət növləri üzrə əhəmiyyətli dərəcədə artmışdır. Belə ki,

2019-cu ildə sahibkarlıq subyektlərinin payı qeyd edilən istiqamət üzrə 23,3% təşkil etmiş, 2020-ci ildə 2,4 bənd artımla 25,7% təşkil etmişdir. 2019-cu ildə istehsal edilmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin ümumi dəyərində sahibkarlıq subyektlərinin payı kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 68,5%, sənayedə 8%, tikintidə 31,9%, ticarət; nəqliyyat vasitələrinin təmirində 74,8%, nəqliyyat və anbar təsərrüfatında 20,0%, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 79,0%, informasiya və rabitədə 33,7%, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda 79,5%, təhsildə 98,4%, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində 59,7%, digər sahələrdə xidmətlərin göstərilməsində 44,7% səviyyəsində olmuşdur. 2020-ci ildə isə qeyd edilən fəaliyyət növlərindən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 2,9 bənd, sənayedə 2,5 bənd, tikintidə 5,6 bənd artım, ticarət; nəqliyyat vasitələrinin təmirində 3,9 bənd, nəqliyyat və anbar təsərrüfatında 6,4 bənd, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 14,4 bənd, informasiya və rabitədə 9,6 bənd, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda 32,6 bənd, təhsildə 17,2 bənd, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində 3,2 bənd, digər sahələrdə xidmətlərin göstərilməsində 2,4 bənd azalma qeydə alınmışdır. Ayrı-ayrı sahibkarlıq subyektləri üzrə göstəricinin müqayisəsi həm 2019-cu il, həm də 2020-ci ildə ildə iqtisadi fəaliyyət növlərinin cəmində orta sahibkarlığın daha üstün xüsusi çəkiyə malik olduğunu göstərir. O cümlədən müqayisə olunan dövrlərdə təhsil ən yüksək paya (98,4% və 81,2%), sənaye ən az xüsusi çəkiyə (8,0% və 10,5%) malik olmuşdur (Cədvəl 4).

Göründüyü kimi, sahibkarlıq subyektləri tərəfindən istehsal edilmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin ümumi dəyərində subyektlərin payının daha yüksək səviyyəsi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq istisna olmaqla əsasən xidmət sektoruna məxsusdur. Bu isə özəl sahibkarlıq subyektlərinin daha çox xidmətlərə meyil göstərdiyini təsdiq edir. İstehsal sahələri ilə müqayisədə xidmət sahələrində özəl sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsini (baxmayaraq ki, xidmət sferasında rəqabət daha yüksəkdir) müəyyən dərəcədə risk amili ilə əlaqələndirmək olar.

**Cədvəl 4**

**İqtisadi fəaliyyət növləri üzrə sahibkarlıq subyektləri tərəfindən istehsal edilmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin ümumi dəyərində subyektlərin payı, faizlə**

| İqtisadi fəaliyyət növləri | Cəmi | 2019 | | | Cəmi | 2020 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| İqtisadi fəaliyyət növləri üzrə cəmi | 23,3 | 9,0 | 3,1 | 11,2 | 25,7 | 9,4 | 3,8 | 12,5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 68,5 | 10,6 | 15,0 | 43,0 | 71,4 | 15,6 | 17,1 | 38,7 |
| Sənaye | 8,0 | 0,7 | 1,0 | 6,4 | 10,5 | 1,2 | 1,3 | 8,0 |
| Tikinti | 31,9 | 5,3 | 5,1 | 21,6 | 37,5 | 6,5 | 6,4 | 24,6 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 74,8 | 54,9 | 5,1 | 14,7 | 70,9 | 50,7 | 6,5 | 13,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 20,0 | 9,5 | 1,9 | 8,5 | 13,6 | 5,4 | 1,9 | 6,4 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 79,0 | 63,7 | 3,9 | 11,3 | 64,6 | 46,7 | 4,4 | 13,4 |
| İnformasiya və rabitə | 33,7 | 9,4 | 5,4 | 18,9 | 24,1 | 3,6 | 5,7 | 14,8 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 79,5 | 10,1 | 19,0 | 50,4 | 46,9 | 5,9 | 10,4 | 30,7 |
| Təhsil | 98,4 | 85,4 | 2,8 | 10,2 | 81,2 | 66,1 | 3,6 | 11,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 59,7 | 30,4 | 5,5 | 23,8 | 56,5 | 29,3 | 7,3 | 19,9 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 44,7 | 10,0 | 12,4 | 22,3 | 42,3 | 10,9 | 11,0 | 20,4 |

*Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*[8]

[8] Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: 2021 - ci il, s.64

Beləliklə, rəqabət mühitinin real vəziyyəti və sahibkarlıq strukturlarının rəqabətqabiliyyətlilik səviyyəsi onların istehsal və bazar davranışını, rəqabət potensialından istifadə istiqamətlərini formalaşdırır. Bu əsasda rəqabət strategiyasını formalaşdırmaq və subyektlərin rəqabət potensialını yaxşılaşdırmaqla bağlı tədbirlərin əsas istiqamətlərini müəyyənləşdirmək mümkün olur.

Üçüncü fəsil "Özəl sahibkarlıq strukturlarının inkişaf perspektivləri və maliyyə dayanıqlığı səviyyəsinin yüksəldilməsi istiqamətləri"nə həsr edilir. Bu fəsildə özəl sahibkarlıq strukturlarının inkişafına dövlət dəstəyi, sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının idarə edilməsi mexanizminin təkmilləşdirilməsi və özəl sahibkarlıq subyektlərinin rəqabət və ixrac potensialının artırılması istiqamətləri müəyyən edilir.

Özəl sahibkarlıq fəaliyyəti iqtisadi inkişafın ən perspektivli istiqamətlərindən hesab edilməklə ölkənin iqtisadi, sosial, elmi və texniki problemlərinin həllində bilavasitə iştirak edir. Özəl sahibkarlığın inkişafı bütün səviyyələrdə rəqabətin inkişafına, bazarların məhsul və xidmətlərə olan tələbatının ödənilməsinə, yeniliklərin yaradılması və tətbiqinə kömək edir, vergi gəlirlərinin artmasında, məşğulluq problemlərinin həllində və yeni iş yerlərinin açılmasında bilavasitə iştirak edir. Qeyd edilənlər baxımından özəl sahibkarlıq mühüm iqtisadi və sosial funksiyalar yerinə yetirir və bütövlükdə iqtisadiyyatın inkişafının ayrılmaz hissəsinə çevirir.

Araşdırmalar göstərir ki, son illər sahibkarlığın inkişafına, eləcədə Covid 19 pandemisiyası nəticəsində sahibkarlara dəymiş zərərin ödənilməsinə dövlət tərəfindən birbaşa maliyyə dəstəyinin göstərilməsinə xüsusi diqqət yetirilməkdədir. Bu baxımdan dövlət tərəfindən stimullaşdırıcı tədbirlərin mühüm istiqaməti kimi *"özəl sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması ilə əlaqədar sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi"*[9] tədbirləri davamlı xarakter almaqdadır. Belə ki, 2022-ci il 1 yanvar tarixinədək

[9] "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixli Fərmanı.

pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyi proqramı üzrə 113 milyon 64,5 min manat vəsait ayrılmışdır.

*“Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu tərəfindən 2019-cu ildə 2018-ci illə müqayisədə (17,529 mln. manat) Fond tərəfindən zəmanət və subdisiya verilmiş kreditlərin məbləği 3 dəfə artaraq 52,195 mln. manat olub. Zəmanət və faiz subsidiyasının tətbiqi ilə sahibkarlar 70 mln. manatadək kredit əldə edib”* . [10]

*“İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin 153 investisiya layihəsinin maliyyələşdirilməsinə 8,6 milyon manat güzəştli kredit ayrılıb. Güzəştli kreditlərin layihə sayı üzrə 92,8%-i kənd təsərrüfatı məhsullarının istehsalı, 5,9%-i sənaye məhsullarının istehsalı və emalı, 1,3%-i isə xidmət sahələrinin inkişafının payına düşüb”* .[11]

Özəl sahibkarlığın dəstəklənməsinin başlıca məqsədi əhalinin həyat səviyyəsinin və keyfiyyətinin artmasını, iş yerlərinin açılmasını təmin edən özəl sahibkarlıq subyektlərinin dinamik və davamlı inkişafını, sahibkarların gəlir səviyyəsindəki artımını, istehlak bazarının məhsul və xidmətlərlə təmin olunmasını nəzərdə tutur. Beləliklə, özəl sahibkarlığın dövlət tərəfindən dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması bütövlükdə iqtisadiyyatın səmərəliliyinin artırılması üçün əlverişli şərait yaratmağı hədəfləyir.

Göstərilənlərlə yanaşı özəl sahibkarlığın inkişafının stimullaşdırılması_regional siyasətin səmərəli üsullarından biri kimi qəbul edilməlidir. Professor İ.H.İbrahimovun fikrincə regionlarda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafına dövlət dəstəyinin aşağıdakı istiqamətlərinə önəm verilməlidir: rəqabətədavamlı və təhlükəsiz ərzaq məhsulları istehsalı və ixracın şaxələndirilməsi, stimullaşdırma mexanizmlərinin müntəzəm təkmilləşdirilməsi; idarəetmənin təkmilləşdirilməsi; inteqrasiya proseslərini şərtləndirən amillər nəzərə alınmaqla bu prosesin təkmilləşdirilməsi və s. Sahibkarlıq fəaliyyətinin effektivliyi nisbətən qısa müddətdə müxtəlif ixtisaslara malik işçi qüvvəsi üçün iş yerləri

---

[10] http://mcgf.gov.az/post/692

[11] http://edf.gov.az/az/news/2665

yaratmaq imkanına malik olması, yeni məhsul və texnologiyaların istehsalına tez müddətdə uyğunlaşaraq innovasiya sferasında mühüm rol oynaması, onların yaradılmasına böyük investisiyaların tələb olunmaması ilə bağlı olduğundan sahibkarlıq strukturları regionlarda iqtisadi fəallığın stimullaşdırılmasının əsas vasitəsi kimi qəbul edilir. Regionlar üzrə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması həm də ona görə vacibdir ki, sahibkarlıq subyektlərinin əhəmiyyətli hissəsi regionlarda fəaliyyət göstərir. Xüsusilə aqrar sahibkarlığın inkişafı əsasən regionlarla bağlıdır.

Regionlar üzrə sahibkarlıq subyektlərinin bölgüsünə nəzər saldıqda məlum olur ki, 2020-ci ildə bu təsərüfatçılıq strukturlarının 47,6%-i Bakı şəhərində yerləşir. Sahibkarlıq subyektlərinin ən çox yerləşdikləri iqtisadi rayonlar Şəki-Zaqatala (4,9%) və Aran (4,8 %) bölgələridir. Gəncə-Qazax iqtisadi rayonunda bu göstərici 3%, Abşeronda 4%, Lənkəranda 1%, Aran iqtisadi rayonunda 5%, digər ərazilərdə 34% təşkil etmişdir [Şəkil 2].




**Şəkil 2. 2020-ci ildə sahibkarlıq subyektlərinin iqtisadi bölgələr üzrə bölgüsü, %-lə**

Qlobal səviyyədə iqtisadi mühitin qeyri-sabitliyi kontekstində özəl sahibkarlıq strukturları ciddi risklərilə üzləşirlər. Belə şəraitdə sahibkarlıq strukturlarının sabit mövqeyini saxlamaq və onların

uzunmüddətli perspektivdə inkişafını təmin etmək çətinləşir. Bu baxımdan maliyyə dayanıqlığının təmin edilməsinə yönəlmiş effektiv idarəetmə mexanizminin formalaşdırılması özəl sahibkarlıq strukturlarının ən mühüm vəzifələrdən hesab edilir. Effektiv idarəetmənin vacib elementlərindən biri maliyyə dayanıqlığının idarə edilməsidir ki, bu da ayrı-ayrı sahibkarlıq subyektlərinin maliyyə sabitliyinin idarə edilməsində mövcud olan fərqli xüsusiyyətləri nəzərə almağı tələb edir. Bundan başqa, maliyyə dayanıqlığının böhrana qarşı idarəetmə mexanizmi kimi özəl sahibkarlıq strukturlarına hansı təsirlərinin olduğuna diqqət yetirmək vacibdir. Deməli, maliyyə dayanıqlığının effektiv şəkildə idarə olunması subyektlərin maliyyə resurslarının daha səmərəli istifadəsinin və onların sabit fəaliyyətinin təmin edilməsinin əsas şərtlərindəndir.

Özəl sahibkarlıq subyektlərinin rəqabət qabiliyyəti onun uğurlu fəaliyyətinin və bazarlarda üstün mövqe tutmasının əsas amili hesab olunur. Qloballaşma şəraitində idxalın ixracla əvəzlənməsi və yerli istehsalın modernləşdirilməsi zərurəti, sahibkarlıq subyektlərinin rəqabət potensialının və onun yaxşılaşdırılması mexanizminin formalaşdırılmasının əhəmiyyəti daha da artırır. Özəl sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin təmin edilməsi onların fəaliyyət prinsiplərinin, istehsal və təklif olunan məhsul, iş və xidmətlərin keyfiyyət xüsusiyyətlərinin müəyyənləşdirilməsinə, eləcə də rəqabət qabiliyyətinin qiymətləndirilməsinə kompleks yanaşmaya əsaslanır.

Beynəlxalq iqtisadi münasibətlərin genişləndiyi müasir şəraitdə sahibkarlıq sferasında rəqabətin kəskinləşməsi təbii olaraq artır. Bu proses təkcə bu və ya digər sahələrdə istehsal olunan məhsul növlərinin (iş və xidmətlərin) rəqabət qabiliyyətinə deyil, bütövlükdə özəl sahibkarlıq subyektlərinin rəqabətə davamlığına ciddi təsir göstərir. Buna görə də yerli istehsalın rəqabət qabiliyyətinin artırılması və onun hərtərəfli qiymətləndirilməsi sahibkarlıq subyektlərinin əsas vəzifələrinə çevrilir.

Qeyd edilənlərdən məlum olur ki, ixracı təşviq etmək və stimullaşdırmaqla dövlət, bütövlükdə sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyətinin qarantı kimi çıxış edir. Eləcə də sahibkarlıq subyektlərinin ixracat fəaliyyətində dövlətin daha təsirli tədbirləri və vasitələrindən istifadə dünya bazarında milli ixracatçıların

mövqelərinin gücləndirilməsinə, beynəlxalq iqtisadi qeyri-sabitliyin yaratdığı disbalansları aradan qaldırmağa imkan verir.

Beləliklə, özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının təmin olunması potensialının və onun gücləndirilməsi perspektivlərinin müəyyənləşdirilməsi ilə bağlı bir sıra ümumiləşdirilmiş nəticələr əldə etməyə imkan verir:

1.Özəl sahibkarlığın inkişafının stimullaşdırılmasında istifadə olunan maliyyə tədbirlərinin təhlili göstərir ki, hazırda mövcud maliyyə alətlərinin xüsusilə mikro və kiçik sahibkarlığın ehtiyaclarına uyğunlaşdırılması zəruridir. Bu zaman maliyyə dəstəyi kimi güzəştli kreditləşdirilmə, risklərin və əmlakının sığortası, prioritet sahələrin subsidiyalaşdırılması məsələləri məqsədəuyğun hesab edilə bilər. Bununla yanaşı sahibkarlıq subyektlərinə maddi-texniki, informasiya ehtiyatlarından, elmi-texniki yeniliklərdən və innovativ texnologiyalardan istifadə üçün güzəştli şəraitin yaradılması zəruridir.

2. Bir çox özəl sahibkarlıq subyektləri üçün resurslara qənaət texnologiyalarının tətbiqi və istehsalın modernləşdirilməsi kimi təxirəsalınmaz vəzifənin həlli hələ də yerinə yetirilməmiş qalır. Belə vəziyyətin yaranması, bir tərəfdən maliyyə təminatı ilə bağlı olsada, digər tərəfdən subyektlərin uzunmüddətli bank krediti əldə etmə imkanlarının kəskin şəkildə azalması ilə bağlıdır. Bu, böyük ölçüdə bankların kredit risklərinin səviyyəsinin artmasında obyektiv tendensiyaları, o cümlədən pandemiya, beynəlxalq maliyyə sistemində baş verən dalğalanmaları önə çəkir. Ona görə sahibkarlıq sferasında uzunmüddətli bank kreditləşməsinin intensivləşdirilməsinin stimullaşdırılması mühüm tədbirlərdən biri kimi özünü göstərir.

3. Ərazilərimizin işğaldan azad olunması ilə əlaqədar özəl sahibkarlığın inkişafının perspektivlərinin artması innovativ sahibkarlıq layihələrinin səmərəli şəkildə maliyyələşdirilməsi məsələləsini ortaya qoymuşdur. Bu məqsədlə dövlət və özəl investorların vəsaitləri hesabına paritet əsasda formalaşdırılan xüsusi fondun yaradılması yolu ilə həyata keçirilən tərəfdaşlıq mexanizmindən istifadə edilməsi məqsədəuyğun hesab edilə bilər. Beynəlxalq təcrübədə bu məqsədlə büdcə ilə yanaşı, vençur firmaları,

sığorta şirkətləri və digər maliyyə institutlarının fəaliyyətindən geniş istifadə olunur.

4. Araşdırmalar göstərir ki, bəzi iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ödəmə qabiliyyəti səviyyəsində geriləmələr, onların likvidliyi və maliyyə dayanıqlığında mənfi tendensiyaya səbəb olmuş, onların ehtiyatları və aktivlərində müəyyən dövrlərdə azalmalar qeydə alınmışdır. Ona görə maliyyə ehtiyatlarından maksimum səmərəli istifadə etməklə dinamik inkişaf edən virtual kapital bazarlarının maliyyə potensialından istifadənin intensivləşdirilməsi məqsədəuyğun hesab edilə bilər. Bundan əlavə, müasir iqtisadi şəraitdə rəqəmsal iqtisadiyyata inteqrasiyası prosesləri ilə bağlı maliyyə münasibətlərinin innovativ formalarından istifadə edilməsi daha perspektivli görünür. Fikrimizcə, bu istiqamətdə investisiya və innovasiya layihələrinin təşəbbüskarlarının stimullaşdırılmasına xüsusi diqqət yetirilməsi vacibdir.

5. Müasir iqtisadiyyatda qlobal maliyyə bazarının inkişafının intensivliyi, şirkətlərin və ya fərdi investisiya layihələrinin fəaliyyətini maliyyələşdirmək üçün kapitalın cəlb edilməsində əhəmiyyətli üstünlükləri ilə seçilir. Bu, əslində müasir sahibkarlıq şəraitində kapitalın artırılması mexanizminin perspektivlərini müəyyənləşdirir. Odur ki, bu sahədə inteqrasiya prosesinin genişləndirilməsi maliyyə resursları ilə təminatda müsbət nəticələr əldə etməyə imkan verə bilər.

6. Maliyyə sabitliyinin təmin edilməsi və ümumilikdə iqtisadiyyatın real sektorunda özəl sahibkarlıq strukturlarının davamlı inkişafının təmin edilməsi innovativ idarəetmə texnologiyalarının tətbiqini zərurətə çevirir. Bu, sahibkarlıq subyektlərinin maliyyə idarəetmə sistemlərinin rasionallaşdırılması, xüsusilə maliyyə resurslarının və maliyyə dayanıqlığının idarə edilməsi baxımından xüsusi aktuallıq kəsb edir.

7. Son dövrlərdə baş verən pandemiyanın və beynəlxalq maliyyə bazarlarındakı dəyişikliklərin sahibkarlıq subyektlərinin fəaliyyətinə mənfi təsirlərini nəzərə alaraq güzəştli büdcə anti-böhran maliyyələşdirməsinin (qrantlar, subsidiyalar, güzəştli kredit proqramları və s.) tətbiqi məqsədəuyğun hesab edilə bilər. Belə tədbirlər büdcə dəstəyi proqramlarının genişlənməsinə, tələb olunan maliyyə resurslarına əlçatanlığın təmin olunmasına imkan verər.

8. Beynəlxalq təcrübə göstərir ki, inteqrasiya siyasəti (yerli və beynəlxalq banklarla əlaqələrin aktivləşdirilməsi və s.) sahibkarlıq strukturlarının maliyyə resurslarının səfərbər edilməsi və həcminin artırılması, dayanıqlı maliyyə fəaliyyətinin əsası kimi çıxış edir. Bu siyasətin nəticəsi inteqrasiya subyektlərinin inkişafının iqtisadi müstəqilliyini şərtləndirməklə maliyyə potensialının yaxşılaşdırılmasına həm öz, həm də borc vəsaitlərinin cəlb edilməsi, eləcə də sahibkarlıq subyektlərinin maliyyə dayanıqlığının təmin edilməsi ilə özünü göstərir.

9. Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, özəl sahibkarlığın inkişafında maliyyə vəziyyətinin qiymətləndirilməsi, fəaliyyət şərtlərinin və perspektivlərinin müəyyənləşdirilməsi, institusional və rəqabət mühiti, infrastrukturun inkişafı, regionlarda sahibkarlığın inkişaf etdirilməsinə dövlət dəstəyi xüsusi əhəmiyyət kəsb edir. Bu məsələlərin özəl sahibkarlıq strukturlarının maliyyə dayanıqlığının da başlıca şərti olması, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və dəstəklənməsi tədbirlərinə kompleks yanaşma tələb edir. Ona görə dövlət, sahibkarlar və cəmiyyət arasında əlaqə və etimad yaratmaq, bütün səviyyələrdə qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi ən vacib məsələlər kimi özünü göstərir.

10. Maliyyə-kredit, investisiya, informasiya, normativ-hüquqi dəstəyə ehtiyac özəl sahibkarlıq sferasında innovativ sahibkarlığın inkişafını, sosial münasibətlərin tənzimlənməsini, sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətdə iştirakının dəstəklənməsi və stimullaşdırılmasını əsas şərtlər kimi qarşıya qoyur. Qeyd edilənlər baxımından özəl sahibkarlığın dəstəklənməsi üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilə bilər:

- fərdi sahibkarlara informasiya dəstəyinin göstərilməsi, bu məqsədlə məsləhət xidməti mərkəzinin yaradılması;
- həm daxili, həm də xarici bazarlarda sahibkarlıq subyektlərinin inkişafına və rəqabət üstünlüyünün formalaşmasına xidmət edən marketinq siyasətinin formalaşdırılması;
- innovasiyaların tətbiqi sahəsində təşviq və təlim proqramlarının həyata keçirilməsi;

- sahibkarlıq strukturları tərəfindən istehsal olunan məhsulların ixtisaslaşdırılmış bazarlara çıxarılmasına zəruri dəstəyin təmin edilməsi və s.

11. Özəl sahibkarlığın informasiya təminatı sisteminin inkişafı üçün mütəmadi olaraq sahibkarlıq subyektlərinə kütləvi informasiya vasitələri vasitəsilə informasiya dəstəyinin göstərilməsi ən uğurlu dəstək tədbirlərindən hesab oluna bilər. Sahibkarlara informasiya və konsaltinq dəstəyinin aşağıdakı sahələrdə həyata keçirilməsi daha effektiv nəticələri şərtləndirmiş olar: mövcud normativ-hüquqi aktlar və təkmilləşdirmələr haqqında məlumatların verilməsi; zəruri proqram təminatının, icarə və ya satış üçün nəzərdə tutulmuş əmlakın reyestrləri haqqında məlumatların yayılması; sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi ilə bağlı perspektivli sahələr, maliyyə və hüquqi məsələlər üzrə məsləhətlərin verilməsi və s.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqa-lələri və tezisləri dərc edilmişdir.**


1. Sahibkarlıq fəaliyyəti və bu sahədə risklərinin azaldılmasına təsir edən amillər//ADAU-nun Elmi Əsərləri. Gəncə 2020, № 1. S. 74-76
2. Özəl sahibkarlıq subyektlərinin maliyyə dayanıqlığının təmin olunması xüsusiyyətləri//ADAU-nun Elmi Əsərləri. Gəncə 2021, №1. S. 100-104
3. Özəl sahibkarlıq iqtisadi inkişafın əsas vasitəsi kimi//İnnovasiyalı iqtisadiyyat və menecment. Gəncə 2021, № 1 (5). S. 31-36
4. Направления повышения конкурентного потенциала субъектов частного предпринимательства//Экономика и предпринимательство. Москва 2021, № 5. с. 890-892
5. İnnovasiya: onun sahibkarliğin inkişafina təsirinin bəzi amilləri// ADAU-nun Elmi Əsərləri. Gəncə 2021. № 3. S. 122-125
6. Sahibkarlıq fəaliyyətində sağlam rəqabətin təmin olunması və rəqabətdən yaranan təhlükələrə qarşı dövlət tədbirləri/Müasir təbiət elmlərinin aktual problemləri. Gəncə 2021. S. 210-213

7. Государственная поддержка и меры стимулирования развития частных предпринимательских структур/ Актуальные научные исследования в современном мире. Переяслав 2021. Выпуск 7 (75) Част 3. С.69-74

8. Направления поощрения и стимулирования экспорта у субъектов частного предпринимательства/ Продовольст-венная безопасность: проблемы и пути решения. Махачкала 2021. С.451-453

9. Преимущества, недостатки и факторы удачи предпринимательства/ Актуальные научные исследования в современном мире. Переяслав 2021. Выпуск 10 (78). С.120-125

10. Sahibkarlıq fəaliyyətində sosial məsuliyyət/Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər. Mingəçevir 2021. S. 336-338



Dissertasiyanın müdafiəsi 14 iyun 2023-cü il tarixində saat 16:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 12 may 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.05.2022

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 44626 işarə

Tiraj 100